# Azərbaycan incəsənət ustaları “Dubay Ekspo 2020”də çıxış ediblər



“Dubay Ekspo 2020” dünya sərgisindəki Azərbaycan pavilyonunda Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə “Odlar Yurdundan musiqi” konserti keçirilib.

AZƏRTAC xəbər verir ki, dünya və Azərbaycan klassik və milli musiqilərini skripkada Ceyla Seyidova, pianoda Nərgiz Əliyeva və tarda Sahib Paşazadə təqdim ediblər.

Dünya sərgisinin ziyarətçiləri, həmçinin milli pavilyonda pianoda Nizami Əliyev və Raci Hüseynovun ifasında konsert proqramını böyük maraqla qarşılayıblar.





Azərbaycan.- 2022.- 6 yanvar.- S.5.